# BÖYÜK VƏTƏNPƏRVƏRİM

*AMEA-nın həqiqi üzvü,*
*Tarix İnstitutunun direktoru*
*Yaqub Mahmudovun 80 illiyinə*



Alim kimi ən yüksək zirvələrə çatmısan,
Bunun üçün gecəni gündüzünə qatmısan.
Səhərlər açılanda qarşılarsan Günəşi,
Heç kəs söndürə bilməz sinəndəki atəşi.
Atəşin odu Vətən, atəşin adı Vətən,
Bu atəşin qoxusu, həm də ki, dadı Vətən.

Həyatın keşməkeşli, yolun rəvan olmayıb,
Bu zirvəyə yüksəlmək heç də asan olmayıb.
Tanrının köməyilə maneələr aşmısan,
Yeri gələndə bir ər, nər kimi savaşmısan.

Qeyrət böyük, vəfa çox,
Ürək Vətənçün vurur.
Qarşımızda elə bil,
Canlı bir heykəl durur
- Vətənpərvər heykəli.

Böyük Vətənpərvərim!
Cildlərlə əsər yazdın, doldu kitab rəflərin.
Onlar oxundu, həm də tapdı öz hədəflərin.
Xalq sevdi tarixini, Vətənini tanıdı,
Dədə Qorqud soyunu, Uzun Həsən boyunu,
Oğuz türkü özünü, babasını tanıdı,
Nəsli-nəcabətini, obasını tanıdı.

Dədəm Qorqud dolandı yaşadığı hər kəndi,
Ağrıdağı, Gəncəni, Naxçıvanı, Dərbəndi.
Təmkinli yerişiylə çəkdirdi xəritəsin,
Dərbənddən Diyarbəkrə, oradan da gerisin.

Zehninlə, qələminlə canlandı orta əsr,
Oxucu bu tarixi öyrənməyə tələsir.
Tələsir ki, tanısın Avropanı, özünü,
Nisbi müqayisədə deyə bilsin sözünü.
Avropa kim? Mən kiməm? O niyə məndən öndə?
Bu sualın cavabın hər kəs axtarır Səndə.

Sovetin sərt, amansız, totalitar çağında,
Qılıncının qabağı, dalı kəsən anında,
"Vətən" dedin, dirəndin, "Dövlət" dedin, dayandın,
"Xalqım", "Dövlətçiliyim" oldu Müqəddəs andın.

Andına sadiq qaldın Sən həmişə, hər zaman,
Kafirə, erməniyə heç vaxt vermədin aman.
Sözün qılıncdan iti, məntiqində var kəsər,
Düşmənə zərbə vurur yaratdığın hər əsər.

Elmin bir yana dursun, ürəyinlə yazırsan,
Vətən dediyin sevgin, diləyinlə yazırsan.
Elə vəsf edirsən ki, Azərbaycan elini,
Yazdıqların titrədir ürəyimin telini.

Dövlətçilik tarixi Sənin şah əsərindir,
Eldəniz, Bayandurlu, Baharlı da sənindir.
Səfəvilər, xanlıqlar tarixində iz qoydun.
Hər nə yazdın, yaratdın, təməlini düz qoydun.

Hünərinlə yazıldı Cümhuriyyət tarixi,
Dövlətçilik yolunda Əbədiyyət tarixi!
Xalqımın tarixinə verdin qiymətli töhfə ,
"Düşmən" dediklərini belə yetirdin əfvə.

Məxəzlərdən yığıldı sənədlər topa-topa,
Qoymadın tariximdən kiçik bir parça qopa.
Dedin, - Qoy, bütöv olsun Azərbaycan tarixi,
Vətənimin tarixi, el-obamın tarixi.

Mədəniyyət həyatın, mədəniyyət canındır,
Bir az da dəqiq desəm, mədəniyyət qanındır.
Mədəni inkişafa çox əsərlər həsr etdin.
Gah Müsəlman Şərqinə, gah Avropaya getdin,
İntibah tarixinə böyük bir səfər etdin.

Sonda nə oldu? Deyim:
- Sən oldun İntibahçı, ən gözəl islahatçı.
İşlədiyin hər yerə verdin bir yeni nəfəs,
Təhsilə, elmimizə yaratdın böyük həvəs.
Minlərlə tələbəmi, alimimi yetirdin,
Tarixi baxışa da bir yenilik gətirdin.

Müasir mərhələdə Vətən tarixində Sən
Bir İntibah yaratdın, elmi məktəb yaratdın,
Saxta tarix yazmanı bir kənara qoyaraq,
Onda yeni bir məzmun, istiqamət yaratdın.

Uğurlarla bərabər ağrı-acıların var.
Onları sıralasam siyahı böyük olar.
Ağrıların əsası hüdudların ağrısı,
İtirilmiş torpaqlar, qaçqınların ağrısı.
Çalışırsan həllini dəstəkləyib, görəsən,
Bu müşkül məsələyə öz töhfəni verəsən.
O qədər iş görmüsən, sadalamaqla bitmir.
Buna dilimizdəki ifadə, söz də yetmir.
Çox demirəm, qorxuram gözə gətirim Səni,
Desinlər, danışsınlar, sözə gətirim Səni.

Mənim millət vəkilim, xalqın özəl elçisi,
Hüququmu qoruyan qanunlar keşikçisi,
İctimai xadimim, Böyük Mütəfəkkirim.
Bütün bunlara görə Sənədir təşəkkürüm.

Xalq da "Çox sağ ol!" - deyir bu böyük xidmətinə,
Dövlətim qiymət verir Sənin şücaətinə.
Təltifin, medalların, ordenlərin saysızdır,
Bəziləri adlıdır, bəziləri adsızdır.

Qoy, ömrün uzun olsun, qəmdən, kədərdən uzaq,
Yenə də əvvəlki tək gözəl süfrələr quraq,
Onları həsr eyləyək yeni uğurlarına,
Sənin qarşıdan gələn bütün baharlarına.
Təşəkkürlər, sağlıqlar söylənsin arxa-arxa
Gözü çıxsın düşmənin, qoy qalsın baxa-baxa.

Ad günündür, deyirəm, nə yaxşı ki, Sən varsan,
Sən bizim elmimizdə əbədi bir baharsan.
Əsərin təravətli - ona aktual deyim,
Natiqsən göz önündə - ona vizual deyim,
Fəaliyyətin geniş - ona virtual deyim,
Bundan sonra nə etsən - ona uğurlar deyim.

Şeirlə yazdım Sənə göndərdiyim Təbriki,
Nəsrdən nəzmə doğru döndərdiyim Təbriki.
Yazdım Sənə şeirlə, bilmirəm alındımı?
Ad gününçün yazıldı, tarixdə qalandımı?

Tarixdə qalmasa da qəlbində saxla bunu,
Zaman-zaman dilləndir, hərdənbir qoxla bunu.
Yenisin yazacağam növbəti ad günündə,
İlbəil təkrarlanan sevincli şad günündə.
Gözlə mənim şerimi, ən azı bununçun yaşa,
Şerim çatdırsın Səni 90 Yaşa, 100 Yaşa!



***Səidə ƏLİQIZI,***
***Bakı Dövlət Universiteti,***
***tarix fakültəsinin dosenti***